

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 23 (21.175)

4 fevral 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, "Bakı-2015" Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Bakı İdman Sarayında həyata keçirilən əsaslı yenidənqurma işlərinin gedişi ilə tanış olublar.

Gənclər və İdman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Dövlətimizin başçısı və xanımı əsas idman zalında aparılan təmir işləri ilə maraqlandılar.

Bildirildi ki, tamaşaçı yerlərinin sayının artırılması üçün zalda əlavə olaraq ikitərəfli tribuna inşa edilib. Zalda oturacaqların sayı təmirdən əvvəl 1100 idisə, yenidənqurmadan sonra bu rəqəm 1736-ya çatdırılıb. Bakı İdman Sarayında idmançılar və tamaşaçılar üçün kafe də fəaliyyət göstərəcək. Bundan başqa, burada püşkatma və mətbuat zallarında, VIP otaqlarda, Avropa Oyunları Təşkilat Komitəsinin iş kabinetlərində və digər yardımçı otaqlarda da yüksək standartlar nəzərə alınacaq.

Dövlətimizin başçısı İlham Əliyev Bakı İdman Sarayında işlərin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılmasına dair müvafiq tapşırıq və tövsiyələrini verdi.

* * *

Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, "Bakı-2015" Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva "Bakubus" Məhdud Məsuliyyətli Cəmiyyətinin ilk Avropa Oyunları üçün avtobus deposu və təlim mərkəzində görülən işlərlə tanış olublar.



## Əhalinin gəlirləri artır, rifah halı yaxşılaşır

Davamlı iqtisadi inkişafın mühüm şərtlərindən biri bu inkişafın dinamikasına mütənasib olaraq əhali gəlirlərinin də artırılmasıdır. Muxtar respublikamızda dövlətin sahibkarlığa verdiyi dəstək və səmərəli məşğulluğun təmin olunması sahəsində həyata keçirdiyi məqsədyönlü siyasət ötən il də öz bəhrəsini verib və muxtar respublikada əhalinin gəlirləri bir il öncəyə nisbətdə 2,2 faiz artaraq 1 milyard 775 milyon 742 min manata, onun hər bir nəfərə düşən həcmi isə 0,8 faizlik artımla 4059 manata çatıb. Bu dövr ərzində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 391,3 manat olub ki, bu da 2013-cü ildəki müvafiq göstəricidən 3,9 faiz çoxdur.

Əhali gəlirləri istiqamətində əldə olunan dinamik inkişaf insanların sosial müdafiəsinə möhkəm zəmin yaradır. İnsanların istehlak tələbatının artması ilə paralel olaraq real gəlirlərin formalaşdırılması və yenidən bölgünün düzgün təşkili bu məsələlərin həllində mühüm əhəmiyyət daşımaqdadır. Bu baxımdan iqtisadi aktivliyin daha da artırılması üçün sahibkarlıq fəaliyyətinə verilən dəstək ötən ildə də öz bəhrəsini verib. Belə ki, 2014-cü ildə muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 33 milyon 548 min 500 manat təşkil edib. Bu kreditlərdən 21 milyon 482 min 500 manatı fərdi sahibkarlığın inkişafına, 12 milyon 66 min manatı isə yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə sərf olunub.

Qeyd edək ki, muxtar respublikada əhali gəlirlərinin artırılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın mühüm əhəmiyyəti olub. Belə ki, ötən bir il ərzində muxtar respublikada 3805 yeni iş yeri yaradılıb ki, bunun da 3709-u daimi iş yerləridir.

## Səfərbərlik hazırlığı üzrə əməliyyat-taktiki təlim keçirilib





*Dünən Əlahiddə Ümumqoşun Ordusu və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə ehtiyatda olan vətəndaşların səfərbərliyə cəlb olunması hazırlığı üzrə əməliyyat-taktiki təlim keçirilib.*

"Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq keçirilən təlimlərdə şəxsi heyətin səyyartipli məntəqələrdə qeydiyyata alınması, tərbiyəvi mövzuda təbliğat işinin aparılması, komandaların qəbul məntəqəsində hərbi vəzifəlilərin siyahısının dəqiqləşdirilməsi, onların səhhətinin yoxlanılması, ixtisas və vəzifələr üzrə bölüşdürülməsi, şəxsi əmlakların təhvil verilməsi, hərbi əmlaklarla təchiz olunması və təlim-dərs nöqtələrinə aparılması kimi icraatlar həyata keçirilib.

Təlimlərdə Əlahiddə Ümumqoşun Ordusunun komandanlığı iştirak edib. Qeyd edək ki, təlimin keçirilməsində əsas məqsəd müharibə şəraitində ehtiyatda olanların səfərbərlik hazırlığına cəlb olunmasının səhra şəraitində əyani olaraq nümayiş etdirilməsidir. Səfərbərlik hazırlığı dövlətin silahlı hücumdan müdafiəsinin təmin edilməsi və müharibə dövründə dövlətin tələbatının və əhalinin ehtiyaclarının ödənilməsi məqsədilə Azərbaycan Respublikası iqtisadiyyatının, icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının və təşkilatların hazırlanmasına, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan xüsusi dövlət orqanlarının və müharibə dövrü üçün yaradılan xüsusi birləşmələrin hazırlığına aid dinc dövrdə əvvəlcədən keçirilən tədbirlər kompleksidir.

## "Ordubad" adlı sərnişin təyyarəsi ilk uçuşunu Naxçıvana edib




*Fevralın 3-də "Ordubad" adlı "Boeing-787-8" Dreamliner sərnişin təyyarəsi ilk uçuşunu Naxçıvan Muxtar Respublikasına edib. Naxçıvan Beynəlxalq Hava Limanında yerə enən təyyarədəki "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin nümayəndələri yerli hava limanının heyəti tərəfindən qarşılandı.*

Sonra təyyarəyə baxış oldu. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin vitse-prezidenti İlham Əmirov "Arzular layneri" barədə jurnalistlərə məlumat verərək bildirdi ki, "Boeing-787-8" Dreamliner təyyarəsi ən müasir texnologiyalarla təchiz olunub. Bu təyyarə həm texniki, həm də xidmət cəhətdən digər hava gəmilərindən fərqlənir. Dreamlinerin çəkisi analoji təyyarələrlə müqayisədə daha yüngüldür. Buna baxmayaraq, uçuş məsafəsi və yükqaldırma imkanı digərlərindən çoxdur və 20 faiz az yanacaq sərf edir. Təyyarə 210 sərnişin tutumuna malikdir. Fasiləsiz 15 saat uçuş yerinə yetirən hava gəmisi birbaşa 15 min 700 kilometr məsafə qət edə bilir. Dreamliner bu göstəricilərə görə hazırkı sərnişin təyyarələri arasında liderdir. "Arzular layneri"nin sərnişin salonunda üç növ oturacaq və onlara uyğun fərqli xidmət sinifləri mövcuddur. Təyyarənin bütün aeronaviqasiya və sərnişin salonunun audio-video sistemləri ən son texnoloji yeniliklər əsasında tərtib olunub. Dreamliner təyyarəsində bir çox elmi nailiyyətlər tətbiq edilib. Beynəlxalq aviasiya təşkilatlarının xüsusi tələbləri nəzərə alınmaqla Azərbaycan Hava Yolları artıq həm uçuş, həm də yerüstü xidmət heyətinin hazırlığına da başlayıb.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin vitse-prezidenti Etibar Hüseynov isə jurnalistlərə açıqlamasında qeyd etdi ki, ilk mərhələdə "Boeing-787-8" Dreamliner ilə Bakıdan Pekinə, Londona və Avropanın digər şəhərlərinə uçuşlar həyata keçiriləcək. 2015-ci ilin yay mövsümündən etibarən isə bu hava gəmisinin Nyu-York və yeni açılacaq hava xətlərində istismarı gözlənilir.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Məhərrəm Səfərli dedi ki, ölkəmizə gətirilən yeni təyyarələrin ilk uçuşlarını Naxçıvana həyata keçirməsi artıq ənənə halını alıb. Bu, ulu öndərimiz Heydər Əliyevin vətəni olan muxtar respublikanın ölkəmiz üçün çox böyük əhəmiyyətə malik geostrateji məkan olması ilə bağlıdır.

## "Naxçıvan tarixi"nin ikinci cildi bu yaxınlarda işıq üzü görəcək

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2012-ci il avqustun 6-da "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" Sərəncam imzalayıb. Bundan sonra üç cilddə "Naxçıvan tarixi" kitabının hazırlanıb nəşr olunması üçün müzakirələr keçirilib, AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin tarixçi alimləri bu işə cəlb olunublar. 2013-cü ildə "Naxçıvan tarixi" çoxcildliyinin birinci cildi işıq üzü görüb. Ötən il isə ikinci cild hazırlanaraq nəşriyyata təqdim olunub.*

Qəzetimizə müsahibəsində bütün bunlarla bağlı məlumat verən AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli bildirdi ki, "Naxçıvan tarixi" çoxcildliyinin ikinci cildi XVIII əsrin ortalarından başlayaraq XX əsrin 30-cu illərinin sonunadək olan ikiəsrlik bir dövrü əhatə edir. Kitabda yeni mənbələr, arxiv sənədləri, tədqiqat əsərləri, dövri mətbuat materialları əsasında Naxçıvan xanlığının yaranması, onun xarici dövlətlər və qonşu xanlıqlarla münasibəti, çar Rusiyasının Naxçıvan xanlığını ilhaq etməsi, Naxçıvanın sosial-iqtisadi, ictimai-siyasi həyatı və mədəniyyət tarixi işıqlandırılıb.

İkinci cilddə həmçinin Naxçıvanın çar Rusiyası tərəfindən ilhaqından sonra bölgədə yaranmış sosial-siyasi vəziyyət, kapitalist münasibətlərinin meydana gəlməsi, XX əsrin əvvəllərində ermənilərin törətdiyi soyqırımlar, Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqələri, ərazinin qorunub saxlanılmasında Araz-Türk Cümhuriyyətinin rolu, əhalinin inadlı mübarizəsi nəticəsində Naxçıvanın muxtariyyət statusu əldə etməsi, Naxçıvan MSSR-in təşkili, XX əsrin 20-30-cu illərinin ictimai-siyasi hadisələri tədqiqata cəlb olunub.

"Giriş", beş fəsil, istifadə olunmuş ədəbiyyat siyahısından, fotoşəkil, xəritə və illüstrasiyalardan ibarət ikinci cild 12 nəfər müəllif və 5 nəfər köməkçi heyət tərəfindən hazırlanıb.

"Naxçıvan tarixi" çoxcildliyinin ikinci cildində XVIII əsrin 40-cı illərindən XX əsrin 30-cu illərinin sonuna qədərki tarixi dövr tədqiqat obyektinə çevrilib.

**Xəbərlər şöbəsi**



*Sabaha uzanan yol...*

***Sərhəd bölgəsi Sədərək rayonunun qış fəslində özgə büsatı var. Erkən payızda səpilmiş taxıl bir boy cücərib və qış yuxusuna gedib. Şumlanıb arata qoyulmuş əkinlər sanki ağır yükünü yerə qoymuş adam kimi dincini alır. Yarpaqları tökülmüş bağ-bağçalardan quşların səs-sədası kəsilmir. Qışlama dövrü başlanılan sürülər, naxırlar bolluq-bərəkət timsalı kimi ötüb-keçənlərdə məmnunluq doğurur. Beləcə, qışın soyuğuna qəribə bir hərarət qatan bu mənzərələri seyr edə-edə rayon mərkəzi Heydərabad qəsəbəsinə çatırıq. Burada insan əli ilə yaradılmış gözəlliklərin əlvan çalarları ilə rastlaşırıq.***

*Jurnalistin qeydləri*

# Sədərəkdə tərəqqinin üfüqləri daha da genişlənir

Sədərək rayonunun bu il 25 yaşı tamam olur. Bu müddət ərzində sürətlə inkişaf edib, iqtisadi cəhətdən yüksəlib, abad və yaraşıqlı rayonlardan birinə çevrilib. Bu yurd yerinin işgüzar, əməksevər adamları var. Aylar, illər uğurla yola salınır.

Tarixə çevrilən 2014-cü il də Sədərək rayonunun sosial-iqtisadi və ictimai-siyasi həyatında dərin və unudulmaz izlər qoyub. Son illər, sözün həqiqi mənasında, əsl intibah dövrünü yaşayan Sədərək ölkə Prezidentinin və Ali Məclis Sədrinin davamlı, əhatəli qayğı və diqqəti sayəsində sürətli inkişaf yolu keçib, gözəl bir yurda çevrilib. Bölgənin dünəni ilə bu gününü müqayisə edib diqqətçəkən yenilikləri möcüzə adlandıranlar da az deyil.

Təbii ki, heç bir möcüzə baş verməyib. Qəbul edilən dövlət proqramları və bu layihələrin icrası üçün dövlət səviyyəsində görülən genişmiqyaslı tədbirlər, yaradılan imkanlar, güclü maliyyə dəstəyi muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Sədərəkdə də yeniləşməni zərurətə çevirib, nəticə etibarilə, rayonun gözəlləşən siması ilə paralel surətdə əhalinin dolanışıq səviyyəsi, həyat şəraiti də xeyli yaxşılaşıb.

Rayonda yeni infrastruktur layihələrin uğurlu icrası, suvarma suyuna və içməli suya olan tələbatın ödənilməsi, sosialyönümlü obyektlərin tikilib istifadəyə verilməsi və sair bölgə əhalisi arasında razılıq və minnətdarlıq hissi doğurur.

Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Bəxtiyar Mahmudov yola saldığımız 2014-cü ilin başlıca yekunlarından söz açaraq deyir:

– Son illər muxtar respublikamızda gedən intensiv inkişaf prosesi rayonumuzdan da yan keçməyib. 2014-cü ildə iqtisadiyyatın bütün sahələrində müsbət irəliləyişlər baş verib. Makroiqtisadi göstəricilər rayonun həm iqtisadi, həm də sosial sahələrinin daha dinamik və sürətlə inkişaf etdiyini göstərir. Məhsul istehsalının həcmi artıb, xidmət sahələrinin fəaliyyəti genişləndirilib. Bir sözlə, 2014-cü ili yüksək göstəricilərlə yola saldıq. Sabaha uzanan bu yol biz sədərəklilər daha xoş günlərə aparır.

*Yeni obyektlər sərhəd bölgəsini daha da gözəlləşdirib*

Sədərəyin indiki büsatını görəndə inana bilmirsən ki, yaxın keçmişdə bu yerlər müharibənin törətdiyi ürəkgöynədən ərazilər olub. İllər sübut etdi ki, ulu öndər Heydər Əliyevin siyasi kursu ən doğru seçilmiş yoldur. Bu yolu yenilməz sədaqətlə, müasir dövrün inkişaf prinsiplərinə uyğun yaradıcılıqla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində Azərbaycan qısa bir zamanda bütün dünyanı heyran qoyan inkişaf səviyyəsinə yüksəldi. Ölkənin artan iqtisadi qüdrəti sayəsində bütün regionlarla bərabər, cəbhə bölgələrinin də siması dəyişib. Bu sırada Sədərəyin yeri tamam başqadır...

Düşmənlə təmas xəttinin iki addımlığında yerləşən Sədərək bənzərsiz yaraşığı, xoş növrağı ilə, sözün gerçək mənasında, düşmənə gözdağına çevrilib. Bu, Vətənini, xalqını sonsuz məhəbbətlə sevən, muxtar respublikanı hər qarışını gülüstana döndərən muxtar respublika rəhbərinin qurub-yaratmaq əzminin məntiqi nəticəsidir. Bu bölgədə adama xoş gələn ən üstün cəhət isə odur ki, daş üstə qoyulan hər daş, ucalan hər bina, əkilən hər ağac, gül-çiçək Vətənə gerçək sevginin canlı təzahürüdür. Burada iş xatirinə iş görmək istəyən yoxdur. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, görülən hər bir iş candan, könüldən görülür.

Sədərək rayonunun inkişafı həmişə dövlətin diqqət mərkəzində olub. Elə “Muxtariyyət ili”ndə də abadlıq, quruculuq işləri yüksək ahənglə davam etdirilib. Keçən ilin yanvar ayında əsaslı təmir olunan və yenidən qurulan Sədərək kənd 1 nömrəli tam orta məktəbin binası qapılarını müəllim və şagirdlərin üzünə açıb.

Rayonda tikinti-quruculuq işləri bununla məhdudlaşmayıb. 2014-cü ildə 1500 hektar sahəni suvarmaq üçün Araz çayından qidalanan Şir arxının üzərində yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidməti, rayon Təhsil və Torpaq şöbələri üçün inzibati binalar da ötən ilin quruculuq ərməğanlarındandır.

Sədərəkdə ən mühüm layihələrdən biri də içməli su və kanalizasiya sisteminin qurulmasıdır. Bu, rayon sakinlərinin çox böyük razılığı ilə qarşılanıb. Rayon ərazisində sahilbərkitmə işləri də davam etdirilir.

Bir məsələni də qeyd edək ki, həyata vəsiqə alan bütün obyektlər müasir arxitektura üslubunda inşa olunub. Düşmənə gözdağı olan bu tikililəri sədərəklilər qoruyub saxlamağı, gələcək nəsillərə ərməğan etməyi özlərinin vətəndaşlıq borcu sayırlar.

*Artım, yüksəliş*

Azərbaycan Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladıqları dövlət proqramlarından, fərman və sərəncamlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi Sədərəyin uğurlarını şərtləndirən başlıca amillərdir.

Sədərək rayonunda 2014-cü ildə də qarşıda duran vəzifələr layiqincə yerinə yetirilib. Bunu ötən ilin statistik rəqəmləri də təsdiqləyir.

2014-cü ildə əvvəlki illə müqayisədə sənaye məhsulu istehsalı 1,5 faiz artaraq 4 milyon 318,4 min manata, kənd təsərrüfatı məhsulları istehsalı 7,7 faiz artaraq 13 milyon manata yüksəlib. Tikinti-quraşdırma işlərinin həcmi 20 milyon 952,1 min manata, əsas kapitala yönəldilən investisiyalar 22 milyon 931,7 min manata çatıb.

İl ərzində rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatda olanlardan 112 nəfəri daimi işlə təmin edilib.

*Yaradılan şərait müqabilində rayon təşkilatları öz işini necə qurur?*

Suala bir neçə təşkilatın timsalında aydınlıq gətirmək istəyirik. İlk olaraq, bölgədə təhsilin səviyyəsinə nəzər salaq. Sədərəkdə 4 tam orta məktəb, 4 məktəbdənkənar, 2 məktəbəqədər müəssisə fəaliyyət göstərir. Bu təşkilatlarda çalışanlar mühüm bir vəzifəni yerinə yetirdiklərini unutmurlar. Onlar sərhəd bölgəsində böyüyən uşaqlara hərtərəfli bilik verməklə yanaşı, şagirdlərin vətənpərvərlik tərbiyəsinin düzgün formalaşdırılması və istiqamətləndirilməsini, dövlətçiliyimizə sədaqət ruhunda tərbiyə olunmalarını diqqət mərkəzində saxlayırlar. Ötən tədris ilində 4 məktəbdən 35 nəfər məzun ali məktəb tələbəsi adını qazanıb.



Yəqin ki, 20 il əvvələ kimi Sədərəkdə yeni səhiyyə ocağının tikilib-tikilməyəcəyi ilə bağlı rəy sorğusu keçirilsəydi, rayon sakinlərinin böyük əksəriyyəti “tikilməyəcək” sözünün altından xətt çəkərdi. Bu rəyi formalaşdıran mühüm səbəblərə görə onları qınamaq da olmazdı. İndi isə xəyal kimi görünənlər gerçəyə çevrilib. Sədərək kəndinin mərkəzindəki rayon Mərkəzi Xəstəxanasının binası ən müasir tələblərə cavab verir. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan xəstəxana 26 çarpayılıqdır. Bu şəfa ocağının görüntüsü uzaqdan diqqəti cəlb edir, içərisində xəstələrin müalicə olunması üçün hər cür şərait yaradılıb. Bu da əhalinin müalicə üçün başqa yerlərə getməsinin aradan qaldırılmasına imkan verib. Yeri gəlmişkən onu da deyək ki, vaxtında həyata keçirilmiş tədbirlər nəticəsində rayonda sanitar-epidemioloji vəziyyətin sabit saxlanılması nəzarətə götürülüb və il ərzində xüsusi təhlükəli xəstəliklər qeydə alınmayıb.

Ötən il rayonda mədəniyyət müəssisələrinin fəaliyyəti daha da gücləndirilib, sahənin maddi-texniki bazası möhkəmləndirilib, kitabxanalar, Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq musiqi məktəbi öz işlərini günün tələbləri səviyyəsində qurmağa çalışıblar. Mədəniyyət və Turizm Şöbəsinin müəssisələrində fəaliyyət göstərən ansambl və özfəaliyyət kollektivləri rayon səviyyəli tədbirləri öz maraqlı konsert proqramları ilə rövnəqləndiriblər.

Əhalinin rabitə xidmətindən istifadəsini yaxşılaşdırmaq məqsədilə 2014-cü ildə xeyli iş görülüb, genişzolaqlı internet istifadəçilərinin sayı artaraq 300-dən yuxarı olub.

*Torpağın bərəkət təknəsi*

Sədərək kənd təsərrüfatı rayonudur. Bölgənin məhsuldar torpaq sahələri, iqlim şəraiti burada kənd təsərrüfatının müxtəlif sahələrini inkişaf etdirməyə imkan verir. Aqrar sahədə işin səmərəli təşkili, dövlət tərəfindən məhsul istehsalçılarına göstərilən maliyyə və texniki dəstək, suvarma suyunun vaxtında verilməsi torpaq mülkiyyətçilərinin xeyli uğurlar qazanmasına səbəb olub. Keçən ilin əvvəlində 209 nəfər buğda istehsalçısına 133 min 930 manat yardım verilib.

2014-cü ilin məhsulu üçün 3574 hektar sahədə əkin aparılıb. Rayonda daha çox inkişaf etdirilən əkinçilik sahələrindən biri taxılçılıqdır. Ölkənin ərzaq təhlükəsizliyi proqramına sanballı töhfələr verməyə çalışan torpaq mülkiyyətçiləri ötən il 2130,2 hektar sahədən 6146 ton “sarı kəhrəba” tədarük ediblər. Hektarın orta məhsuldarlığı 28,9 sentner olub. Qazanılan yüksək nəticə sədərəkliləri “Kənd təsərrüfatı ili”ndə də bol məhsul yetişdirməyə ruhlandırıb.

Digər bitkiçilik sahələri üzrə çəkilən zəhmət də hədər getməyib. Keçən il 1815,4 ton kartof, 4877,5 ton tərəvəz, 102 ton paxlalı, 437 ton dən qarğıdalı, 44,3 ton günəbaxan, 2124,1 ton bostan məhsulları istehsal olunub.

“2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” Sədərək rayonunda da uğurla icra edilir. Mühüm elmi-nəzəri, sosial-iqtisadi əhəmiyyət kəsb edən bu dövlət proqramında qarşıya qoyulan tələblərin maksimum şəkildə icrası üçün münbit ərazi mövcuddur və əlverişli iqlim, eləcə də su təminatı baxımından rayonun potensialı və imkanları genişdir. Son iki ildə burada bağların yaradılması və ixtisaslaşdırılmasına, yerli şəraitə uyğunlaşdırılmasına, məhsuldar meyvə-tərəvəz, üzüm növlərinin çeşidlərinin bərpa edilməsinə xüsusi diqqət yetirilir. Barverən bağlardan ötən il 485 ton meyvə və 1175 ton üzüm tədarük edilib.

Göründüyü kimi, sərhəd bölgəsinin fədakar insanları düşmənlə üz-üzə doğma yurdda ocaq yandırır, zəmi göyərdir, məhsul yetişdirir, əzəmətli sosial obyektlər, möhtəşəm imarətlər ucaldırlar.

Bir sözlə, 2014-cü il sədərəklilərin yaddaşına layiqli əmək nailiyyətləri ili kimi həkk olunub. Heç şübhəsiz, dövlətin böyük diqqət və qayğısı ilə 2015-ci ildə onlar daha böyük layihələrə və uğurlara imza atacaqlar.

Cəfər ƏLİYEV

## Ordubad aqrar sahədə daha bir ili uğurla başa vurub

Ordubad Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, rayonda ötən il 2429,9 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 6680 ton məhsul yığılıb. Məhsuldarlıq orta hesabla 27,5 sentner olub. 2013-cü illə müqayisədə yığım sahəsi 2,9 hektar, yığılmış məhsul 25 ton çoxdur. 1307,7 hektar buğda əkini sahəsindən isə 3572 ton buğda tədarük edilməklə hektarın orta məhsuldarlığı 27,3 sentnerə çatdırılıb. 840,2 hektar arpa əkini sahəsindən isə 2200 ton məhsul əldə edilib.

Rayonda kartofçuluğun inkişafı da diqqət mərkəzində saxlanılır. Bu sahədə məhsuldarlığı ilbəil artıran ordubadlılar 573 hektar kartof əkilmiş sahədən 8417 ton məhsul toplayıblar. Məhsuldarlıq orta hesabla 146,9 sentner olub. 2013-cü illə müqayisədə yığılmış məhsul 6,8 ton çoxdur. 672 hektar tərəvəz əkinlərindən isə 4503 ton məhsul əldə edilib. Məhsuldarlıq orta hesabla 67 sentnerə çatdırılıb. 41 hektar bostan bitkiləri əkilmiş sahədən isə 277 ton bostan məhsulları yığılıb. Məhsuldarlıq hər hektarda orta hesabla 67,6 sentner təşkil edib.

2014-cü ildə 34 hektar sahədə təkrar əkin aparılıb. Bu da 2013-cü illə müqayisədə 3 faiz artım deməkdir. Cari ilin taxıl məhsulu üçün ötən il 1890 hektar sahədə şum qaldırılıb. 2014-cü ildə 1875 hektar sahədə dən üçün payızlıq səpin həyata keçirilib. Bunun 1308 hektarı buğda, 567 hektarı isə arpa sahələridir.

Son illərdə meyvəçiliyə xüsusi diqqət yetirilməsi öz bəhrəsini verib. Barverən meyvə bağlarından 1583 ton məhsul yığılıb. Üzüm bağlarından isə 136 ton üzüm toplanıb.

Ötən il rayonun heyvandarları üçün də uğurlu il olub. Belə ki, 1 yanvar 2015-ci il tarixə Ordubad rayonunda 9254 baş qaramal olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz və yaxud 134 baş çoxdur. Bu il yanvarın 1-nə olan məlumata görə, rayonun təsərrüfatlarında 65 min 216 baş qoyun və keçi bəslənib. 2014-cü ildə rayonda diri çəkidə 1748,1 ton ət, 5529,4 ton süd, 7640,8 min ədəd yumurta, 99,4 ton yun istehsal edilib. 2013-cü illə müqayisədə ət istehsalı 2,1 faiz, süd istehsalı 1,9 faiz, yumurta istehsalı 8 faiz, yun istehsalı 2,9 faiz artıb.

Son illər arıçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, dövlət maliyyə dəstəyinin gücləndirilməsi daha uğurlu göstəricilər əldə edilməsinə şərait yaradıb. Bütün bunların nəticəsidir ki, rayonda arı ailələrinin sayı ilbəil artır, istehsal olunan məhsulun Naxçıvan Muxtar Respublikasından kənarda da satışı təşkil edilir. 2014-cü ildə rayonun arıçılıqla məşğul olan təsərrüfat sahibləri 71 ton bal istehsal ediblər.

Balıqçılıqla məşğul olan müəssisələr tərəfindən 2014-cü ildə 118 min manat (2013-cü ildə 116 min manat) dəyərində balıq satılıb.

## Yük və sərnişindaşımalarının həcmi ildən-ilə artır

Naxçıvan Muxtar Respublikasında yol-nəqliyyat infrastrukturunun müasir standartlara uyğun qurulması, aid qurumların fəaliyyətinin müasir tələblər səviyyəsində təşkili və səmərəliliyin artırılması diqqət mərkəzində saxlanılır. Son illərdə yeni avtovağzalların tikilib istifadəyə verilməsi, rahat, geniş, müasir standartlara cavab verən yolların çəkilməsi, müasir sərnişin dayanacaqlarının quraşdırılması, şəhərdaxili və şəhərlərarası sərnişindaşımada istifadə olunması üçün iritutumlu, rahat avtobusların alınıb muxtar respublikamıza gətirilməsi bu diqqətin bariz ifadəsidir.

Yol-nəqliyyat şəbəkəsinin inkişafı istiqamətində müəyyənləşdirilən tədbirlər 2014-cü ildə də davam etdirilib, nəticədə, nəqliyyat sektorunda yük və sərnişindaşımalarının həcmi artan xətt üzrə inkişaf edib. Belə ki, muxtar respublikanın nəqliyyat sektorunda yük daşınması 2013-cü illə müqayisədə 1,9 faiz, sərnişindaşınması 1,8 faiz artıb. Yük və sərnişindaşımalarından 47 milyon 570 min manat gəlir əldə edilib ki, bu da 2013-cü ildəki müvafiq göstəricini 2,1 faiz üstələyib.

Xəbərlər şöbəsi

***Bu** gün muxtar respublikada təhsilə göstərilən qayğıdan bəhrələnən ali təhsil ocaqlarından biri də Naxçıvan Müəllimlər İnstitutudur. Qeyd edək ki, ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli Fərmanına əsasən, Naxçıvan Politexnik Texnikumunun bazasında Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı yaradılıb. 2003-cü il avqustun 26-da isə filial müstəqil instituta çevrilərək Naxçıvan Müəllimlər İnstitutu kimi fəaliyyətini davam etdirib. Ötən müddət ərzində bu ali təhsil ocağının fəaliyyəti genişləndirilib, alitəhsilli kadrların hazırlanması sahəsində bir sıra nailiyyətlər əldə edilib. Bu dövrdə institut ixtisaslı müəllim kadrları ilə təmin edilib, institutun binası yenidən qurulub, lazımi tədris şəraiti yaradılıb, maddi-texniki baza gücləndirilib, yeni ixtisaslar açılıb. Yaradılan şərait hesabına qısa müddət ərzində institut qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlməyə səy göstərib.*

# Ölkəmizin qabaqcıl 10 ali təhsil ocağından biri – Naxçıvan Müəllimlər İnstitutu

Bu ilin əvvəllərində ilk dəfə olaraq müəyyənləşdirilmiş Azərbaycan Respublikasının 30 ali məktəbinin çoxkriteriyalı, beynəlxalq standartlara uyğun reytinq cədvəlində bu institutun da adı var. Qeyd edək ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas hədəflərindən biri olan təhsil müəssisələrinin reytinq sisteminin yaradılması məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yüzdən artıq hökumət və qeyri-hökumət təşkilatlarının iştirakı ilə "İctimai təşəbbüslərə dəstək" adlı müsabiqə təşkil etmişdi. Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatı "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsi ilə müsabiqənin qalibi olaraq layihəni həyata keçirmək üçün dövlət sifarişi alıb. Layihəyə əsasən, ilk dəfə Azərbaycan Respublikasının 30 ali məktəbinin çoxkriteriyalı, beynəlxalq standartlara uyğun reytinq cədvəli hazırlanıb, ali məktəblərin fəaliyyəti müqayisəli qiymətləndirilərək nəticələr ölkə ictimaiyyətinə çatdırılıb. Nəticəyə görə, Naxçıvan Dövlət Universiteti reytinq cədvəlində birinci yeri tutub, Naxçıvan Müəllimlər İnstitutu isə ilk onluqda yer alıb.

Ümumiyyətlə, Naxçıvan Müəllimlər İnstitutu son dövrlərdə bir sıra uğurlara imza atıb. İstər tədrisin keyfiyyətinin yüksəldilməsi, istər elmi-nəzəri biliklərin qazanılması, istərsə də dünya təhsil sisteminə inteqrasiya sahəsində institutun əldə etdiyi nailiyyətlər getdikcə artır.

Məlumat üçün deyək ki, ilk illər institutda "ibtidai təhsilin pedaqogikası və metodikası" və "məktəbəqədər tərbiyənin pedaqogikası və metodikası" ixtisaslarında təhsil verilirdisə, bu gün "pedaqogika və psixologiya", "defektologiya", "təsviri incəsənət, rəsmxət və əmək təlimi", "ibtidai sinif müəllimliyi", "riyaziyyat və informatika müəllimliyi", "təsviri incəsənət müəllimliyi", "məktəbəqədər təlim və tərbiyə", "təhsildə sosial psixoloji xidmət" ixtisasları üzrə bakalavr, "ibtidai təhsilin pedaqogikası və metodikası" və "pedaqogika nəzəriyyəsi və tarixi" ixtisasları üzrə isə magistratura təhsil pillələri üzrə tədris aparılır.

Elmi kadrların hazırlanması intellektual inkişafın əsas şərtidir. Ona görə də institutda elmi-pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. 1094 tələbə və magistrantların təhsili ilə 89 professor-müəllim məşğul olur. İnstitutda Dillər və ədəbiyyat, Pedaqogika və psixologiya, Humanitar və təsviri incəsənət, Riyaziyyat və tədris metodikası, Ali riyaziyyat və informatika, eləcə də Ümumi fənlər kafedraları fəaliyyət göstərir. Son 5 ildə institut əməkdaşlarının 765 məqaləsi, 393 tezisi, 65 kitabı, o cümlədən 30 monoqrafiya, 5 dərslik, 30 dərs vəsaiti və həmçinin 73 metodik vəsait və fənn proqramları nəşr edilib. Son beş ildə institut əməkdaşlarından 4 nəfər elmlər doktoru, 10 nəfər fəlsəfə doktoru alimlik dərəcəsi alıb.

Ötən müddətdə institutu bakalavr təhsil pilləsi üzrə 1300-dən artıq tələbə bitirib. Bu gün ali təhsil ocağında mütərəqqi təhsil metodlarının tətbiqinə geniş fikir verilir. Dünyada qəbul edilmiş tədris metodlarından istifadə tələbələrin bilik və dünyagörüşünün inkişaf etdirilməsinə səbəb olub. Hazırda institutda təhsil bolonya sistemi üzrə aparılır.



Ali məktəbdə gələcəyin müəllimlərini hərtərəfli yetişdirmək üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında pedaqoji təcrübə xüsusi diqqətdə saxlanılır.

Pedaqoji təcrübələrin mütəşəkkil və yüksək səviyyədə keçməsi üçün başlanğıc və yekun konfranslar təşkil olunur, bu konfranslara tədris müəssisələrinin rəhbərləri, qabaqcıl pedaqoqlar dəvət edilir, məsləhət və tövsiyələr verilir.

Təhsil ocağı haqqında danışarkən institutda yaradılan Kurikulum Mərkəzinin fəaliyyətini də xüsusi vurğulamaq lazımdır. Mərkəzin əsas məqsədi müxtəlif fənlər üzrə fənn kurikulumlarının öyrədilməsi və tətbiq edilməsidir. Kurikulum Mərkəzində kurikulum üzrə bank yaradılıb, informasiya mənbələri əldə edilib. Mərkəz kurikulumun öyrədilməsi üçün müasir təlim texnologiyaları ilə zənginləşdirilib. Mərkəzin əməkdaşları Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumtəhsil məktəblərinin müəllimləri üçün seminarlar təşkil edib, kurikulumun məzmunu, strukturu və tələblərin öyrədilməsi məsələləri ilə əlaqədar onlara köməkliklər göstəriblər. Mərkəz öz işini daha da təkmilləşdirməkdədir.

Naxçıvan Müəllimlər İnstitutunda xarici ölkələrlə elmi əməkdaşlıq da daim diqqət mərkəzindədir. Bu məqsədlə ABŞ Riyaziyyatçılar Birliyi, Ukrayna Milli Elmlər Akademiyasının Riyaziyyat İnstitutu, Xarkov Universiteti, Rumıniyanın Konstansa Universiteti, Türkiyə Respublikasının Niğde Universiteti, Kocaeli Universiteti, Qars Qafqaz Universiteti, Kırşəhər Ahi Evren Universiteti, Ankara Universiteti, Şimali Kipr Türk Cümhuriyyətinin Doğu Akdeniz Universiteti, İngiltərənin London Riyaziyyatçılar Birliyi, İranın Marağa Astronomiya və Astrofizika Elmi-Tədqiqat İnstitutu, Qazaxıstan Respublikasının Almaatı Milli Universiteti ilə institut əməkdaşları sıx əlaqə saxlayır, beynəlxalq konfranslarda iştirak edir, onların elmi jurnallarında məqalələr çap etdirirlər.

Belə əlaqələr ölkəmizdə, eləcə də muxtar respublikamızda fəaliyyət göstərən ali təhsil ocaqları və elm müəssisələri ilə də qurulub. 2007-ci ildən başlayaraq Naxçıvan Müəllimlər İnstitutu Naxçıvan Dövlət Universiteti, AMEA-nın Naxçıvan Bölməsi, Riyaziyyat və Mexanika İnstitutu, "Azərbaycan Astronomiya" Cəmiyyəti və Marağa Astronomiya və Astrofizika Elmi-Tədqiqat İnstitutu ilə birlikdə müxtəlif mövzularda fizika, riyaziyyat və texnika elmləri üzrə beynəlxalq simpozium və konfranslar, 2009-cu ildən başlayaraq Naxçıvan Dövlət Universiteti və Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu ilə birlikdə "Pedaqoji kadr hazırlığı: problemlər, vəzifələr, tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri" mövzularında beynəlxalq konfranslar keçirir.

Naxçıvan Müəllimlər İnstitutunda elmi tədbirlərin təşkili və elmi-pedaqoji kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır, əlamətdar günlərdə konfrans və simpoziumlar təşkil olunur, elmi müzakirələr aparılır. 2003-cü ildən başlayaraq hər ilin may ayında "Müasir təlim metodları və yeni pedaqoji texnologiyanın təlim-tərbiyə prosesində tətbiqi" mövzusunda elmi-praktik konfranslarda pedaqogikanın yeni nailiyyətlərindən söhbətlər aparılır. Konfranslarda ali təhsil müəssisələri əməkdaşları ilə bərabər, təhsil şöbələrinin əməkdaşları və tam orta məktəb müəllimləri də fəal iştirak edir, müxtəlif mövzularda məruzələr dinlənilir.

Naxçıvan Müəllimlər İnstitutunda zəngin kitabxana fəaliyyət göstərir. 33 minə yaxın kitab fonduna malik olan kitabxana son illərdə nəşr olunan tədris-metodik, elmi ədəbiyyatlarla zənginləşdirilərək elektron kataloq yaradılıb. Hazırda fondda 1500 ədəd elektron kitab vardır. Həmçinin institutun "Xəbərlər" adlı elmi-metodik jurnalı nəşr olunur. Jurnalın ildə 4 nömrəsi buraxılır. İnstitutda müasir avadanlıqlarla təchiz olunmuş Nəşriyyat şöbəsi də fəaliyyət göstərir.

***Göründüyü kimi, Naxçıvan Müəllimlər İnstitutu möhkəm bünövrəyə malik olan, dövlətçilik təmayüllü, müasir ali təhsil ocağıdır. İnstitut ən mühüm vəzifələrdən birini yerinə yetirir – gələcəyin müəllimlərini yetişdirir. Bu gün alitəhsilli müəllim hazırlanması, ilk növbədə, ölkəmizin intellektual potensialının artırılmasında mühüm əhəmiyyətə malikdir. Bu məsuliyyəti dərindən dərk edən institutun kollektivi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək əzmindədir.***

Sara ƏZİMOVA

*Turizm*

# Qışda da istirahətinizi Naxçıvanda keçirin



***Mənalı istirahət həvəskarları üçün yay-qış deməli ilin istənilən dövründə, Yer kürəsinin istənilən nöqtəsində turizm imkanları vardır və bu səyahətlərə yaranan meyil əvvəlcə insanın maddi imkanlarından və yaradılmış rekreasiya kompleksinin vəziyyətindən asılıdır. Əgər qış dövründə ələ düşən qısa məzuniyyət və ya tətil müddətində təbiətlə birbaşa ünsiyyətdən zövq almaq istəyənlər varsa, uzaq ölkələrdə qar və xizək axtarmağa dəyməz. Naxçıvan dağlarında hər il olduğu kimi, bütün qış gözəlliklərini özündə barındıran unikal şərait və üstəgəl fəal istirahəti təşkil etməyə imkan verən zəruri infrastruktur vardır.***

Muxtar respublikamızda eko və müalicə turizmi dedikdə çoxları yaz-yay fəsillərində Ordubadın Göygölündən tutmuş Duzdağa qədər, oradan da Batabat yaylağınadək uzanan geniş ərazidə saf ekoloji mühitdə keçirdikləri zəngin təəssürat dolu günlərini xatırlayır. Gün keçdikdə gözəlləşdirilən Naxçıvanın yaşıl libasını siyah kəmər kimi kəsib keçən hamar yollarla bu istirahət məkanlarına çatıb gün ərzində gəzinti, əyləncə, idman və yürüş kimi müxtəlif turist fəaliyyətləri keçirmək mümkündür. Fəsillərdən qış olduqda isə ilk baxışda bunların mümkün olmadığı görünsə də, əslində, bu dövrdəki xidmət çeşidliliyi, münasib qiymətlər və mövsümi imkanlar ilin bu zamanında Naxçıvana gələn turistləri daha da həvəsləndirir.

Qışın təkcə qarı deyil, bu fəslin özünəxas sakit mənzərəsi kimi az olan qayğıları da əsl turizm imkanları kimi qiymətləndirilə bilər. Otel təsərrüfatının da tarazlı işi baxımından turistlərin bir qisminin (məsələn, müalicə üçün gələn turistlərin) Naxçıvana səfərlərinin qışda təşkil olunması həm region iqtisadiyyatı, həm də turistlərin daha mənalı istirahəti üçün əlverişlidir. Misal üçün, Duzdağda yerin altındakı şaxtalarda yayda və qışda eyni temperatur və müalicə xidmətləri vardır.

Bütün bunlarla yanaşı, qış turizminin Naxçıvanda özünəməxsus reseptləri vardır. Turizm baxımından qışda, adətən, qarla bağlı müxtəlif idman tədbirləri nəzərdə tutulsa da, əslində, qış ağ örpəyə bürünmüş təbiətlə daha yaxından tanış olmaq üçün ideal zamandır. Qışda həvəskar turistlər üçün gəzinti, müxtəlif vəhşi heyvanların, quşların izlənməsi, onların fotoşəkillərinin çəkilməsi kimi turistlərə, xüsusən də gənc və orta yaş qrupundan olan insanlara son dərəcə maraqlı ola biləcək turlar təşkil etmək mümkündür. Naxçıvanın zəngin ekosistemi, bir-biri ilə növbələşən relyefi, su hövzələri buna əlverişli imkan yaradır. Bir həkim dostumun söhbətində qış aylarında həftə sonları Naxçıvan dağlarının kristal kimi təmiz havasında dağ yürüşləri keçirməyin ən yaxşı müalicə olduğunu dediyini xatırlayıram. Doğrudan da, havada toz qarışıqlarının çox az olduğu bir yerdə oksigenlə zəngin hava ilə tənəffüs etmək sağlamlığı daha da möhkəmləndirir. Adamlar yayı yay, qışı qış kimi təbiətlə həmahəng keçirərlərsə, gümrah olacaq, erkən yaşlarından da səhhətlərindən şikayət etməyəcəklər.

Qış turizmi fəal istirahətlə bərabər, eyni zamanda gənclərin ekoloji və vətənpərvərlik tərbiyəsində mühüm vasitədir. Hazırda muxtar respublikamızın bütün ucqar kəndlərindəki müasirtipli məktəblərdə, habelə Şahbuz şəhərindən 20 kilometr məsafədə yerləşən, dəniz səviyyəsindən 2000 metr yüksəklikdəki Ağbulaq İstirahət Mərkəzində məktəblilərin və tələbələrin qış tətili günlərində bir-birindən maraqlı tur və ekskursiyalar təşkil olunması mümkündür. Məqsəd, dərs ilinin ortasında gənclərin fiziki və zehni yorğunluğunun azaldılması ilə yanaşı, onlara doğma yurdumuzun gözəlliklərinin tanıdılması, təbiətlə sıx ünsiyyətdə olmağın insan orqanizminə, onun ruhi və fiziki sağlamlığına necə müsbət təsir etdiyinin aşılanmasıdır. Bu gün uşaq və gənclərin həddən artıq yükləyən internet və müxtəlif elektron oyunlar olmadan keçirilən birhəftəlik dağ yürüşü onların əsl rekreasiyasını təmin edən qüvvətli vasitə sayılır. Dünya praktikasında da bu, belədir.



***Keçənlərdə, hələ kənddə internet, mobil telefon, videozəng olmayanda qalın qarlı qış axşamlarında qonşular bir-birinin evinə toplaşıb çay içər, şirin söhbətlər edərdilər. Düzdür, indi qış bir az mülayimləşsə də, pəncərədən Ordubadın, Şahbuzun ağappaq qarlı dağları yenə adama gəl-gəl deyir. İnternetdə dostlarımın paylaşdığı Batabatın bəyaz süslü şəkillərini gördükcə bu, bütün Naxçıvanın sərvətidir, – deyə düşünürəm. Bu sərvət isə həmişə bizim olub.***

Əli CABBAROV

*Xalq yaradıcılığı*

# Unudulmaqda olan uşaq oyunları və ya “bəndə” düşən bənövşənin çağırışı

*“Bənövşə, bəndə düşə, bizdən sizə kim düşə?*

*– Adı gözəl, özü gözəl...”*

Təəssüf ki, bu nöqtələrin yerinə bir ad tapıb yaza bilmədim. Çünki nə məhəllələrdə qaçıb oynayan uşaqları gördüm, nə onların şaqraq gülüşlərini eşitdim.

*“– Ay bala, gəl evə, gizlənqaç oynamaqdan tər içində qalmısan, heç olmasa, gəl, əynini dəyişim, get, yenə oyna.*

*– Anacan, bircə oyunum qalıb, onu da oynayım, gələrəm.*

*– Onda qoy, heç olmasa, bir dürmək tutum, verim ye, ondan sonra oyna, acsan.*

*– Yox, ana, ac deyiləm, qonşudakı Xanım nənə gətirdi, hamımıza kökə verdi...”*

Hə, əziz oxucular, yəqin ki, ana ilə bala arasındakı bu qısa dialoq çoxlarınızın uşaqlıq illərindən qalan xatirələri canlandırdı, məhəllələrin tozlu-torpaqlı küçələrində oynadığınız oyunları, uşaqlıq dostlarınızı, təsadüfi tanışlıqları yada saldı. Bəlkə də, kimsə yıxılıb dizinin, dirsəyinin sıyrılmasından yaranan ağrının xəfif sızıltısını qəlbində hiss edir. Atdığınız topun qırdığı şüşənin cingiltisini eşitdiniz. Yadınıza düşdü ki, siz də həmişə bu yaşda olmamısınız, məhəllənizdən olan bir neçə uşaqla əl-ələ yapışıb bənd yaratmısınız. Qurduğunuz bəndin daha da möhkəm olması üçün yoldaşınızın əlindən bərk-bərk yapışmısınız. Qarşı bənddən birinin adını çəkib, meydan oxumusunuz və uşaq ağlı ilə dərk etmisiniz ki, nə qədər hər kəs bir-birindən möhkəm yapışıb, bu bəndi heç kim qırıb keçə bilməz. Deməli, güc birlikdədir. Və yaxud bəndi qırmaq üçün sürətlə qarşı tərəfin bağlı səddinə yaxınlaşmısınız. Özünüzdə inam olub ki, nə olursa-olsun, mən bu səddi qırıb keçəcəyəm və yoldaşlarıma qələbə sevinci yaşadacağam. Deməli, oyunlar həm bizi tərbiyə edib, həm də əyləndirib.




Bəs çilingağac, yeddidaş, qəcəmədaş, ortadaqaldı, qovalaqaç, gizlənqaç, gözbağlıca, əl üstə kimin əli, hostana, “hansı rəng?”, ortayakeçmə və başqa oyunları necə, oynamamısınızmı? Çilingağacda dəqiqlik və sərrastlığın qələbə gətirdiyini öyrənməmisinizmi? Əks təqdirdə, qarşı tərəfdən birini çiyinlərinizdə daşıyacağınızın məsuliyyətini hiss etməmisinizmi? Yeddidaş sizə daşı daş üstünə qoymağın nə qədər çətin olduğunu, onu dağıtmağın isə an içində mümkün ola bildiyini öyrətməyibmi? Başqa oyunlar da onlar kimi.

Öyrədib, əziz oxucular, öyrədib. Deməli, bizi bağça, məktəb, valideynlər, ətraf mühitlə bərabər, elə bu oyunlar da tərbiyə edib. Uşaqlığımızın ən xoş xatirələrinin əksəriyyəti də elə bu oyunların yadigarıdır.

Bəs indi? İndi siz öz övladlarınızın küçədə, yarım saat belə olsa, oynamağına necə baxırsınız? Onlara bu şəraiti yaradırsınızmı? Və ya oyunların qaydaları haqqında, iki söhbətiniz olubmu? Məqsədim “Niyə dəyərlərimizi belə tez unuduruq?” sualına cavab tapmaq, unudulan dəyərlərimizdən biri olan xalq uşaq oyunlarına qayıtmağın mümkün olduğuna, “bəndə” və ya “bəndlərə” düşən dəyərlərimizin yaşadılmasının vacibliyinə oxucularımızı inandırmaqdır.

Naxçıvan şəhər 7 nömrəli uşaq bağçasının metodisti Vəfa Tarverdiyeva deyir ki, adət-ənənələri, etnoqrafiyanı özündə ehtiva edən uşaq oyunları bizi milli-mənəvi dəyərlərimizə, soykökümüzə bağlayan ən incə tellərdir. Çünki bu oyunların təməlində xalqımızın ən qədim tarixindən, millətimizin genindən gələn mədəniyyət, incəsənət, döyüş bacarığı, mübarizə əzmi, çəldlik, çeviklik var.

Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin psixoloqu Surə Qurbanova uşaq oyunlarını dünyaya baxışı və zəkanı inkişaf etdirən düşüncə laboratoriyası adlandırır. Müsahibim qeyd edir ki, yaşamaq üçün hava və su əhəmiyyətli olduğu qədər, uşaq üçün də oyun əhəmiyyətlidir. Bundan başqa, oyunlarda qaydaların pozulmamasına uşaqlar özləri məsuliyyət daşıyır, düzgünlüyə riayət edilməsinə diqqət göstərirlər. Bu gün inkişaf edən texnologiya, çox təəssüflər olsun ki, bir çox şeydə olduğu kimi, uşaqların oyun mədəniyyətində də köklü dəyişikliyə səbəb olub. Müasir uşaqları oyunlar və oyuncaqlar maraqlandırmır. Onları daha çox mobil telefonlar, kompüter oyunları, internet və seriallar maraqlandırır. Bu məsələ də valideynləri və müəllimləri, eləcə də biz məktəb psixoloqlarını narahat edir.

“Qızıma çoxlu oyuncaqlar alsam da, o, bunlarla qəti şəkildə maraqlanmır. Onun bu oyuncaqlara marağı beş dəqiqə çəkir. Aldığım oyuncaqlar kənarda qalır. Qızım daha çox kompüterlə maraqlanır. Ümumiyyətlə, son vaxtlar nisbətən böyük uşaqların da oyunlar oynadığını müşahidə etməmişəm. Övladlarımın kompüter oyunlarından asılı hala düşmələrinin digər səbəbi bizim onlarla oyun oynamamağımız və onları öz ətrafımızdan uzaqlaşdırmağımız ola bilər”. Bunu şəhər sakini Sona Əliyeva deyir.

Əziz valideynlər, bu bir həqiqətdir ki, unudulan dəyərlərimiz olan uşaq oyunlarından fərqli olaraq, kompüter oyunları uşaqların dünyasına hakim olub. Bunda biz valideynlərin də müəyyən qədər günahı var. Ona görə ki, uşaqlarımıza yaxşılıq etdiyimizi düşünüb “Get bir az həyətdə oyna” demək əvəzinə övladlarımızı qorumaq fikriylə “gözümün önündə olsun, başım sakit olsun, uşaq kompüterdə oynasın, mən də öz işimi görüm!” deyərək onları kompüter oyunlarıyla baş-başa buraxırıq. Ancaq unuduruq ki, övladımız tamamilə tənhalaşanda bu oyunları onlara qadağan edə bilməyəcəyik. Çünki qadağaların psixoloji izləri uşaqlarda bir çox hallarda qalıcı olur. Digər tərəfdən, uşaqları oyunlardan ayrı salan hazırlıq kurslarının faydası olduğu kimi, zərərli olduğunu da anlamalıyıq. İndi bəzi valideynlər var ki, uşaqlarını elə bağça yaşlarından hazırlıqlara yönləndirir, onları oyun oynamaqdan məhrum edirlər. Düşünürlər ki, oxumağa tez başlayan uşaq mütləq “dahi” olacaqdır. Halbuki bu, səhv düşüncədir. Bu işdə məktəbəqədər, məktəbdənkənar müəssisələr, eləcə də orta məktəblər böyük rol oynaya bilər. Belə ki, bu oyunların yaşadılması və gələcək nəsillərə ötürülməsi üçün məşğələlər, dərsdənkənar saatlar ayrılması, bu işə mütəxəssislərin cəlb olunması mümkünsüz, əlçatmaz bir iş deyil. Sadəcə, təşəbbüs göstərmək, ictimai fəal olmaq kifayət edər.

“Bənövşə, bəndə düşə...” Çox əfsuslar olsun ki, uşaq oyunları kimi qiymətli milli dəyərimiz elə özümüzün soyuq münasibəti ucbatından boynubükük qalıb, “bəndə” düşüb. Onu arxasında qaldığı səddən, unudulmaqdan qurtarmaq üçün uşağımızla az da olsa, bu oyunları oynamalı, onlara uşaqlığımızdan yadigar qalan oyunları öyrətməliyik. Evdə övladlarımızın olduğunu yaddan çıxarmamalıyıq. İnanın ki, uşaqlar internet və ya kompüter oyunları əvəzinə bizimlə zövqlə oynayacaqları oyunu daha çox istəyirlər. Xahişim budur ki, bircə dəfə rahat divana uzanıb televizora baxmaq əvəzinə uşaqlarla oynayasınız. Onda nəticəni görəcək, unudulmaqda olan dəyərlərimizin uşaqların davranışında nə qədər müsbət dəyişikliyə səbəb olduğunu hiss edəcəksiniz.

***Hər halda təcrübədən keçirməyə, uşaq oyunlarının faydalı olacağına inanmağa dəyər. Çünki biz özümüz özümüzə inanmasaq, dəyərlərimizə və övladlarımıza etinasız yanaşsaq, onlar da gələcəkdə bizə həmin qarşılığı verəcəklər.***

Səbuhi HÜSEYNOV

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin yanvar ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1262 | 75,7 | 76,0 | 100,4 |
| 2. | Şahbuz rayonu | 499 | 29,9 | 30,0 | 100,3 |
| 3. | Culfa rayonu | 1224 | 73,4 | 73,6 | 100,3 |
| 4. | Kəngərli rayonu | 782 | 46,9 | 47,0 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 3250 | 195,0 | 195,0 | 100,0 |
| 6. | Babək rayonu | 2250 | 135,0 | 135,0 | 100,0 |
| 7. | Şərur rayonu | 2122 | 127,3 | 121,3 | 95,3 |
| 8. | Sədərək rayonu | 389 | 23,3 | 22,2 | 95,3 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 18959 | 1137,7 | 1040,8 | 91,5 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | **30737** | **1844,2** | **1740,9** | **94,4** |

**Qeyd:** Yanvar ayında texniki itki nəzərə alınmaqla daxil olan 30 milyon 737 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 844 min 200 manat olmuş, cəmi 1 milyon 740 min 900 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 94,4 faizini təşkil edir.

## Teatrlar yeni tamaşalar hazırlayır






*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı bu il repertuarına maraqlı əsərlərin səhnələşdirilməsini daxil edib. Hazırda teatrda görkəmli yazıçı və dövlət xadimi Nəriman Nərimanovun “Nadanlıq” pyesinin məşqləri gedir. Tamaşanın quruluşçu rejissoru Tofiq Seyidov, rəssamı Xalq rəssamı Hüseynqulu Əliyev, musiqi tərtibatçısı Çingiz Babayevdir.*

Tamaşanın əsas qayəsi feodal qaydalarının törətdiyi dəhşətli fəlakətlərə, köhnə adət-ənənələrə, cəhalət və nadanlığa qarşı mübarizəni göstərməkdir. Tamaşanın ideyası insanları yeniliyə, işıqlı ideyalara çıxarmaqdır. Azərbaycan ədəbiyyatında nadanlıq ilk dəfə bu əsərdə tənqid obyektinə çevrilib.

Məlumat üçün bildirək ki, bu il əsərin səhnəyə qoyulmasından 120, N.Nərimanovun anadan olmasından isə 145 il keçir.

Tamaşada Xalq artisti Həsən Ağasoy (Hacı Abdulla), Azərbaycan Respublikasının Əməkdar artisti Əbülfəz İmanov (Şamil), aktyorlardan Səyyad Məmmədov (Ömər), Zəminə Baxşəliyeva (Yetər), Nurbəniz Niftəliyeva (Gülpəri) rol alıblar.

Tamaşanın ilin birinci rübündə teatrsevərlərə təqdim edilməsi nəzərdə tutulub.

Bu tamaşadan sonra teatrın kollektivi Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İftixar Piriyevin ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ithaf etdiyi ikihissəli tarixi dram olan “Qurtuluş dastanı” əsərini səhnələşdirməyi nəzərdə tutur. Əsərdə ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyi uğrunda apardığı gərgin mübarizə və ölkəmizi ağır vəziyyətdən xilas etməsindən bəhs olunur.

İlin sonuna doğru isə teatr yazıçı-dramaturq Əli Əmirlinin “Varlı qadın” komediyasının səhnəyə qoyulması ilə məşğul olacaq. Komediyada həyatımızda baş verən komik situasiyalar əks etdirilir.

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında isə bu il tanınmış şairə-dramaturq Kəmalə Ağayevanın “Sirli sözlər”, şair Zaur Vedilinin “Çalıb-çağıran ağac”, Əli Səmədlinin “Meşə çaqqalsız olmaz”, Səbuhi Hüseynovun “Dəniz əfsanəsi” əsərləri səhnələşdiriləcək. Zəngin Azərbaycan şifahi xalq ədəbiyyatından bəhrələnən bu əsərlərdə uşaqlara nəcib duyğular, müsbət keyfiyyətlər aşılanır. Yaxın günlərdə “Sirli sözlər” tamaşasının məşqlərinə başlanılacaq.

Əli RZAYEV


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 86